## AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

## İXTİSASLAR VƏ İXTİSASLAŞMALAR

## BAKALAVR

## MUSİQİ SƏNƏTİ FAKÜLTƏSİ

| | **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12.01.2009-cu il tarixli, 8 nömrəli qərarı ilə təsdiq olunmuş ixtisas siyahıları üzrə ixtisaslar:** | İxtisasın kodu |
|---|---|---|
| 1 | **Musiqişünaslıq** | 050307 |
| | Musiqişünaslıq ixtisasının məqsəd və vəzifələrinə Azərbaycan və dünya musiqi tarixinin öyrənilməsi; müxtəlif dövr bəstəkarların yaradıcılığının və bədii istiqamətlərin təhlil edilməsi; janr, üslub, məzmun, forma, musiqi dilini əlaqələndirilməsi; musiqi-nəzəri fənlər blokuna daxil olan sahələrin metodiki prinsiplərinə yiyələnməsi; simfonik və xalq çalğı alətləri orkestrlərinə daxil olan bütün musiqi alətlərinin yaranma tarixinə dair məlumatların mənimsənilməsi; bir və çoxsəsli solfecio nömrələrinin ifa edilməsi, musiqili imlaların yazılması, eşitmə qabiliyyətinin və musiqi yaddaşının təkmilləşdirilməsi; Azərbaycan xalq musiqisinin nəzəri əsaslarının mənimsənilməsi və s. daxildir. | |
| 2 | **Solo oxu** | 050304 |
| | Solo oxu ixtisasının məqsəd və vəzifələrinə muğam ifaçılıq texnikasının əsaslarının, ifa prinsiplərinin, hər dəstgahın musiqi-üslub xüsusiyyətlərinin, əruz və musiqinin qarşılıqlı əlaqələrinin, muğam sənətinin əsas inkişaf mərhələlərinin, muğam dəstgahlarının, zərb muğamların, təsnif və rənglərin, xalq mahnılarının mənimsənilməsi, Azərbaycan və dünya musiqi tarixinin öyrənilməsi; səslərin səlis intonasiya edilməsi, solo oxuma tədrisinin metod və vasitələrinin mənisənilməsi daxildir. | |
| 3 | **Estrada sənəti** | 050309 |
| | Estrada sənəti ixtisasının məqsəd və vəzifələrinə tələbələrdə vokal-texniki vərdişlərin formalaşması və inkişafı; səsin yaranmasının mükəmməlliyinə mane olan qüsurların aradan qaldırılması; tələbənin estrada janrının ifaçısı kimi kompleks şəkildə tərbiyələndirilməsi, estrada-vokal musiqisinin müasir texniki vərdişlərinə yiyələnməsi, yüksək dərəcəli əsərlərdən ibarət olan geniş diapazonlu repertuara malik olması, müraciət edilən hər bir bəstəkara məxsus dəst-xəttin, estrada sənətinin əsas inkişaf mərhələlərinin, estrada musiqisində müxtəlif üslub təmayüllərinin və bədii axınların, müxtəlif estrada-vokal janrlarında yaranmış əsərlərin üslub xüsusiyyətlərinin öyrənilməsi daxildir. | |
| 4 | **İnstrumental ifaçılıq** | 050303 |
| | İnstrumental ifaçılıq ixtisasının məqsəd və vəzifələrinə ixtisasa uyğun olan alət qrupunda solo partiyaların ifa edilməsi, musiqi əsərlərinin təfsir problemləri, ifa olunan əsərlərin ideya-bədii məzmununun dolğun şəkildə çatdırılması, mövcud olan interpretasiya variantları ilə tanışlıq, kiçik və iri həcmli əsərlərin ifası, əsərin bədii mahiyyətinin düzgün təcəssümü, ixtisasların ifaçılıq tarixi və nəzəriyyəsi, texniki ifaçılıq xüsusiyyətlərinin təkmilləşdirilməsi, ümumi və musiqi pedaqogikasının əsasları, Azərbaycan və dünya musiqi tarixinin öyrənilməsi; müxtəlif dövr bəstəkarların yaradıcılığının və bədii istiqamətlərin təhlil edilməsi daxildir. | |
| 5 | **Xalq çalğı alətləri ifaçılığı** | 050310 |
| | Xalq çalğı alətləri ifaçılığı ixtisasının məqsəd və vəzifələrinə ixtisasa uyğun olan alət qrupunda solo partiyaların ifa edilməsi, musiqi əsərlərinin üzdən oxunma texnikasına, xalq çalğı alətləri ifaçılığının tədrisinin metod və vasitələrinə, məqam nəzəriyyəsi və məqam sisteminə, səs sistemi və temperasiya xüsusiyyətlərinə yiyələnməsi, muğam dəstgahları, zərbi muğamların səlis çalınması, Azərbaycan xalq çalğı alətləri orkestrinin partiturasının təhlil edilməsi, xalq mahnıları, simfonik əsərləri Azərbaycan xalq çalğı alətləri orkestri üçün köçürmə bacarığı daxildir. | |